# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ 20-30-cu İLLƏR SOVET TARİXŞÜNASLIĞINDA

**Y.R.HƏSƏNOVA**
*Bakı Dövlət Universiteti*

20-30-cu illərdə sovet tarixçilərinin Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı yazılan əsərlər Azərbaycanda Sovet hakimiyyətinin qurulmasının ilk illərinə təsadüf etdiyindən bu əsərlər müəlliflərin faktları tam gizlədə bilməməsi, bəzən də hadisələrə obyektiv münasibət nümayiş etdirmələri baxımından xüsusi əhəmiyyət daşıyır. Bütün bu göstərilənlərlə yanaşı, 20-30-cu illər, xüsusilə də 20-ci illərə aid olan sovet tarixşünaslığında elə əsərlərə rast gəlmək mümkündür ki, burada tarixi faktlar nəinki təhrif edilmiş, hətta hadisələrə sovet totalitar rejimi şəraitində müəllifin obyektiv, "sinifsiz" münasibəti əks olunmuşdur.

Azərbaycan Xalq Cümhuriyyəti tarixinin bir sıra aspektləri N.Nərimanovun əsərlərində də bu və ya digər dərəcədə işıqlandırılmışdır. Azərbaycanda sovet hakimiyyətinin qurulmasının qatı tərəfdarı olan N.Nərimanovun məktubları və Mərkəzə göndərdiyi məlumatları AXC tarixini öyrənmək baxımından mühüm əhəmiyyət kəsb edir. Bolşevik partiyasının fəal üzvü və Leninin yaxın silahdaşı olmuş N.Nərimanovun siyasi baxışları Müsavat və digər demokratik qüvvələrin siyasi baxışları ilə ziddiyyət təşkil edirdi, onun Azərbaycanın gələcək siyasi taleyi ilə bağlı planları isə özünün göstərdiyi kimi "Rusiyasız Azərbaycanın səadəti yoxdur" mülahizəsi ilə məhdudlaşırdı. Azərbaycanın Rusiyadan ayrılıqda siyasi mövcudiyyəti ilə razılaşmayan N.Nərimanovun yazılarında bu tendensiya özünü daha açıq şəkildə göstərir.

Tədqiq edilən problemlə bağlı N.Nərimanovun Azərbaycan hökumətinin başçısı Nəsib bəy Yusifbəyliyə ünvanladığı məktub xeyli maraq doğurur [6, 202-206]. N.Nərimanovun göstərilən məktubu bir növ baş nazir Yusifbəyliyə və onun şəxsində bütün demokratik ruhlu Azərbaycan ziyalılarının tənqidi ilə başlayır, onları "millət", "din" sözlərini işlətdiklərinə görə "geri qalmış adamlar" adlandırır [6, 202]. Bakıya ingilis qoşunlarının daxil olması ilə bağlı hökumətin apardığı siyasəti tənqid edən N.Nərimanov yazır: "Məlum anda siz nəinki ingilislərə qarşı düşməncəsinə çıxış etməyə başladınız, əksinə onlarla o qədər dostlaşdınız ki, özünüz də xəbəriniz olmadan müstəqilliyinizi itirdiniz" [6, 202]. Bu sətirləri yazan dahi "bolşevik rəhbəri" görünür ya hadisələrə beynəlxalq münasibətlər kontekstində yanaşmaq istəmir, ya da böyük ehtimalla Sovet Rusiyası tərəfindən verilən sifarişi yerinə yetirir. Qeyd etmək lazımdır ki, müttəfiq qoşunları Bakıya Mudros müqaviləsinə görə daxil olmuşdu və praktiki baxımdan onlara müqavimət göstərmək gənc Azərbaycan dövləti üçün əhəmiyyətsiz idi. Hətta milli hökumət buna cəhd göstərsəydi belə, uğursuzluqla qarşılaşardı.

Haqqında danışılan məktubunda N.Nərimanov bir daha Sovet Rusiyasının Azərbaycana olan marağını açıqlayır: "Siz bilmirsiniz ki, Azərbaycan Bakı şəhəri ilə birlikdə Sovet hakimiyyətinə münasibətdə xüsusi yer tutur?" [6, 205]. Bundan sonra N.Nərimanov Sovet Rusiyasının Azərbaycana olan marağını daha açıq şəkildə izhar edir: "Sovet Rusiyasının Gürcüstan və Ermənistanla əlaqələri xüsusi rol oynamır, lakin Bakı-bu Sovet Rusiyasının əsas həyat mənbəyidir." [6, 205]. Göründüyü kimi N.Nərimanov Sovet Rusiyasının Bakısız yaşaya bilməyəcəyini dilə gətirməklə yanaşı, həm də Sovet Rusiyasının Azərbaycanla bağlı təcavüzkarlıq planlarını açıqlamış olur, digər tərəfdən isə N.Nərimanov sanki Bakının Rusiyanın əlində olmamasına təəssüflənir. Bütün bunlar, Rusiyanın Azərbaycan Xalq Cümhuriyyətinə qarşı apardığı mübarizənin mahiyyətinin onun bir nümayəndəsi tərəfindən etiraf edilməsi kimi qəbul oluna bilər.

Milli hökumətə qarşı tutduğu düşmənçilik mövqeyinə baxmayaraq N.Nərimanov Azərbaycanla bağlı bir sıra qiymətli məlumatlar vermişdir. Bu tip məlumatlara ən çox onun "Azərbaycandakı vəziyyət haqqında Moskvada şifahi məlumat"ının yazılarında verilmişdir [6, 220-225]. Azərbaycana qarşı Denikin təhlükəsindən bəhs edərkən müəllif onun hərbi əməliyyatlar həyata keçirmək haqqında düşünmədiyini, Zaqafqaziyanı diplomatik və təbliğat yolu ilə ələ keçirməyə cəhd etdiyini yazır. Bakıda Denikinin dayaqları haqqında müəllif yazır: "Bakıda Denikin əksinqilabının ocağı Podşibyakininin başçılığı altında olan "Russovetdir"" [6, 221].

Azərbaycan Xalq Cümhuriyyəti tarixinin bəzi səhifələrini əks etdirən əsərlərdən biri də Bakı Soveti qurumunun rəhbəri, türk-müsəlman əhalisinə qarşı həyata keçirilən mart soyqırımının təşkilatçısı Stepan Şaumyanın oğlu Suren Şaumyanın "Bakı kommunası" əsəridir [12]. Hadisələrin bir çoxunun yaxın iştirakçısı olmuş müəllifin tarixə münasibətdə çox zaman açıq etiraf mövqeyində durması onun əsərinin tədqiq edilən mövzu baxımından daha da əhəmiyyət daşımasına səbəb olur.

Müəllif göstərilən əsərində çox zaman ziddiyyətli fikirlər irəli sürsə də, onun məlumatları qeyd olunduğu kimi açıq etiraf xarakteri daşıyır. S.Şaumyan Bakı kommunası qoşunlarının ölkənin qərbinə-Gəncəyə etdiyi yürüş zamanı, sovet qoşunlarının törətdiyi əməlləri belə təsvir edir: "Tərkibinin çoxunu daşnaklar və daşnak kimilərdən ibarət olan komandir heyəti özlərini yerli türk əhalisinə münasibətdə meydan oxuyurmuş kimi aparırdılar. Təhcizatın pisliyindən dərinləşən çapovulçuluq, qarət geniş vüsət alırdı. Bir çox hərbi rəislər böyük miqdarda xalça, qoyun sürüləri müsadirə edərək onlarla alver edirdilər" [12, 29]. S.Şaumyan ordu sıralarındakı bu özbaşınalığı partiya təşkilatının zəifliyi ilə izah edərək göstərir ki, orduda komandanlıqdan daha çox Erməni Milli Şurası nüfuza malik idi. "Bu amil ona gətirib çıxardı ki, kəndlilər bizim ordunun timsalında onları bəy və xanların zülmündən qurtarmaq üçün köməyə gələn xilaskar, müttəfiq əvəzinə düşmənlərini görməyə başladılar, bu da daha çox musavatçıların dəyirmanına su tökürdü" [12, 30] S.Şaumyanın bu acı etirafını bir daha sovet tarixçilərinin guya yerli əhalinin sovet qoşunlarını dəstəkləməsi, hətta onlara kömək etməsi kimi cəfəng fikirlərini puça çıxarır.

Azərbaycanlılardan ibarət qoşun hissələrində azərbaycanlı zabit kadrların olmamasına toxunan Şaumyan yazır: "Burada da köməyə qonşu Gürcüstan "demokratik respublikası" gəldi. Menşeviklərin başçılıq etdiyi Gürcüstan hökuməti proletar Bakısına qarşı müsəlman burjuaziyasına pulla, komandir heyəti və digər şeylərlə kömək etdi" [12, 31]. Tarixi sənədlərlə təsdiqlənməyən bu mülahizəni irəli

sürən Şaumyan Bakı kommunasının türk qoşunlarını öz ərazisindən buraxmamaq haqqında Gürcüstan hökumətilə danışıqlara girməsini etiraf etsə də, bu haqda sənədlərin olmadığını bəhanə gətirib məsələnin üzərindən keçir [12, 31]. O, hətta daha da irəli gedərək Gürcüstan hökumətini türk qoşunlarını öz ərasizindən buraxdığı üçün satqın da adlandırır [12, 33].

Sovet tarixçilərinin Biçeraxovun cəbhəni buraxıb getməsini onun Sovet hakimiyyətinə xəyanəti kimi qiymətləndirməsinə baxmayaraq Şaumyan Biçeraxovun Bakı kommunası qarşısındakı xidmətini belə təsvir edir: " Biçeraxovun sayəsində düşmən hücumu Kürdəmirdə ləngidildi, bu da bizim hakimiyyətimizin daha yarım ay mövcudluğu, bu isə öz növbəsində Rusiyaya daşınan yeni on milyon pudlarla neft demək idi" [12, 35]. Müəllif bununla bir daha Bakı kommunasının Azərbaycanın neft sərvətlərini talayaraq Rusiyaya göndərməsi faktını təsdiqləyir, bu isə öz növbəsində Bakı kommunasının antixalq siyasətinin digər tərəfini üzə çıxarır.

20-30-cu illər nəşr edilmiş əsərlər sovet təbliğat maşınına xidmət etsə də, ümumilikdə Azərbaycan Xalq Cümhuriyyətinin tarixini öyrənmək baxımından əhəmiyyətsiz sayıla bilməz. Tarixçi A.İsgəndərovun qeyd etdiyi kimi "bolşevik ideyalarına yüksək xidmətləri ilə yanaşı, bəzi məsələlərdə obyektivlik nümayiş etdirdikləri üçün onların əksəriyyəti 30-cu illərin repressiyalarının qurbanı oldu" [3, 97].

Burdan Azərbaycanın 1917-1920-ci illər tarixinə həsr edilən 20-30-cu illər tarixşünaslığında elmi cəhətdən çatışmayan təkcə onların təbliğat xarakteri daşıması deyil, həm də əsərlərdə Bakıda baş verən hadisələrin geniş surətdə işıqlandırılması, bunun fonunda isə bölgələrin diqqətdən kənarda qalması və hadisələrin hakim rejimə sərf edən tərzdə şərh edilməsidir. Lakin yuxarıda göstərildiyi kimi müəlliflərin bəzi məsələlərdə obyektivlik nümayiş etdirmələri, bu əsərlərdə 1917-1920-ci illərdə Azərbaycanda baş verən mürəkkəb hadisələrin xronikasının yaradılması, indi əlimizdə olmayan bir sıra qiymətli məxəzlərin elmi dövriyyəyə gətirilməsi onları Azərbaycan tarixinin 1917-1920-ci illər dövrünün bəzi məsələlərinə münasibətdə əvəzsiz mənbəyə çevirir.

Azərbaycanın 1917-1920-ci illər tarixinin tədqiq olunmasında mühüm əhəmiyyət daşıyan əsərlərdən bir neçəsi Y.Ratqauzerə məxsusdur [4; 8]. Müəllif "Bakıda inqilab və vətəndaş müharibəsi" əsərində ən çox "vətəndaş müharibəsi" adlandırdığı mart soyqırımına toxunsa da, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, Bakı Sovetinin süqutu və bütün bunlarla əlaqədar baş verən bir sıra hadisələrə münasibət bildirmişdir. Y.Ratqauzer Azərbaycana turk hərbi yardımının hadisələrin sonrakı gedişinə mühüm təsir göstərdiyini vurğulasa da, bununla yanaşı Bakı Sovetinin məğlubiyyətinin əsas səbəbini erməni zabitlərinin və onların tabeçiliyində olan ordu hissələrinin fərariliyində görür. O, bolşevik cəbhəsinin zəifləməyə başlamasını belə izah edir: "24-25 iyunadək Bakı cəbhəsində nizami türk orduları hələ yox idi, 15 iyunda Yelizavetpolda yaradılmış Azərbaycan hökuməti adlanan qurumun bölmələri ilə vuruşmaq lazım gəlirdi. Pis silahlanmış bölmələrə qarşı durmaq o qədər də çətin deyildi və ilk dövrlərdə Qırmızı Ordu bir sıra qələbələr əldə etmişdi, lakin artıq iyulun ikinci yarısından etibarən erməni zabitlərinin başçılığı altında olan erməni hissələrindən ibarət Bakı hökumətinin başlıca qüvvələri cəbhəni sabotaj etməyə başladılar" [8, 97]. Məsələni bu cür qoyan Ratqauzer Bakı kommunasının yalnız erməni hərbi dəstələrinə arxalanması faktını təsdiq edir.

Ratqauzer ümumiyyətlə Bakını Azərbaycanın və azərbaycanlıların paytaxtı hesab etmir, ona Rusiyanın bir əyaləti, lakin olduqca mühüm, mərkəz üçün həyati

əhəmiyyət daşıyan bir bölgə kimi baxır. O, bununla bağlı eserlərin çıxış yolu kimi Bakıya ingilislərin dəvət edilməsini görmələrini və bunu geniş xalq kütlələri arasında təbliğ etmələrinə toxunaraq yazır: "Aydın idi ki, Sovet Rusiyası tərəfindən kömək göstərməyə daha böyük əsas var idi, ingilislərin dəvət edilməsi isə Sovet Rusiyasının Bakı ilə əlaqəsini kəsmiş olurdu" [8, 206]. Ratqauzer bununla Bakının Sovet Rusiyası üçün böyük əhəmiyyət daşımasını göstərməklə yanaşı, digər tərəfdən, Denstervillin başçılığı altında gələn ingilis qoşunlarının sayca az və hərbi cəhətdən əhəmiyyətsiz olmasını da qeyd edir. Buna baxmayaraq Ratqauzer Sovet Rusiyasının da göndərdiyi qüvvələrin hərbi baxımdan əhəmiyyətsizliyini özünəməxsus populizmlə belə izah edir: "Hərbi baxımdan gələn bölmə həlledici əhəmiyyət kəsb edə bilməzdi, lakin o, Mərkəzi Sovet hökumətinin Bakı proletariatına öz azadlığını saxlamağa hər bir qüvvə və imkan daxilində kömək etməyə hazır olmasının sübutu idi" [8, 204]. Göründüyü kimi Ratqauzer Sovet Rusiyasının Bakıya olan marağını gizlətməyə çalışmır. Lakin müəllif bütün bunları "proletar Bakısına kömək" və s. kimi populist mülahizələrlə ört-basdır etmək istəyir.

Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyəti dövründə baş verən kəndli iğtişaşlarına münasibət bildirən Ratqauzer bu barədə ziddiyyətli mülahizələr irəli sürür. Göstərilən dövrdə Azərbaycanda, xüsusilə Gəncə-Qazax bölgəsində baş verən kəndli çıxışlarını yalnız hökumətin yarıtmaz aqrar siyasəti və torpaqsızlıqla bağlı olduğunu yazan müəllif, digər tərəfdən bunun bir səbəbinin də vəziyyətdən məharətlə istifadə edən bolşeviklərin təbliğatı olduğunu etiraf edir: " İnqilabi hərəkat Qazax qəzasında bilxassə sol "Hümmətçi" olan yoldaş Əliyevin fəaliyyəti nəticəsində çox böyük bir qüvvəyə çatmışdı" [4, s.20]. Məsələ ilə bağlı Ratqauzer fikrini belə yekunlaşdırır: "Bolşevik təbliğatı Azərbaycan kəndliləri içərisində özünə münasib bir zəminə bulmuşdu" [4, 22].

Ratqauzer sözügedən əsərində "Müsavat diplomatiyası" başlığı altında Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətinə də toxunmuşdur. Ratqauzer ənənəvi sovet streotiplərinə uyğun olaraq Azərbaycanın müstəqil olmadığını, onun əvvəl Türkiyənin, sonra isə İngiltərənin işğal dairələrinə düşdüyünü, eləcə də Azərbaycan hökumətinin özünün müstəqilliyə can atmadığını sübut etməyə çalışır. Bununla yanaşı müəllif özü öz fikrini təkzib etməli olur: "Lakin bu göstərdiyimiz hallar Azərbaycan nazirlərinin yüksək siyasətlə məşğul olmalarına və Cümhuriyyət ərazisini genişləndirmək üçün planlar tərtib etmələrinə mane olmadı" [4, 53]. Elə isə sual olunur: bu necə işğal edilmiş ölkə idi ki, onun nazirləri fəal xarici siyasət xətti həyata keçirirdi? Görünür, müəllif əvvəlki mülahizəsinin faktlarla təkzib ediləcəyini nəzərə almamışdır.

20-ci illərin ikinci yarısında Sovet tarixşünaslığında Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətinin bəzi aspektlərinin araşdırılmasına cəhd göstərilməsi meylləri müşahidə olunmağa başlayır. Bu baxımdan müvafiq problemin araşdırılmasına ilk cəhd A.Rayevski tərəfindən göstərilmişdir.

A.Rayevskinin AXC-nın xarici siyasəti ilə bağlı yazmış olduğu ilk irihəcmli əsəri "İngilis müdaxiləsi və Müsavat hökuməti" adlanır [9]. A.Rayevski göstərilən əsərində ciddi-cəhdlə AXC hökumətinin antixalq siyasəti yürütdüyünü, Azərbaycanı İngiltərənin müstəmləkəsinə çevirmək cəhdlərini sübut etməyə çalışır. Müttəfiq qoşunlarının [A.Rayevskiyə görə onların tərkibində Fransa və ABŞ nümayəndələri olsa da bu ordu yalnız İngiltərənin mövqeyini müdafiə edirdi]. Bakıya daxil olması kimi beynəlxalq əhəmiyyətli hadisəni şərh edən A.Rayevski ümumilikdə AXC-ni

beynəlxalq münasibətlər sistemindən təcrid edərək, hadisəni lokal zəminə salır, ona yalnız ingilis - "müsavat" qarşılıqlı əlaqələri kontekstində baxır. A.Rayevskinin şərhindən belə aydın olur ki, guya, Respublikanın elan olunmasından ingilislərin gəlişinədək Azərbaycanda Türkiyə işğal rejimi mövcud olmuşdur. İngilis qoşunlarının Bakıya gəlməsi haqqında qərara hökumətin münasibətini müəllif belə aydınlaşdırır: "24 saata öz mövqelərini 180 dərəcə dəyişən müsavat rəhbərləri yeni ağaya itaət etmək üçün tələsik Ənzəliyə getdilər" [9, 32]. Əslində məsələni dövrün beynəlxalq münasibətləri kontekstində qoymaq istəməyən müəllif hökumətin Azərbaycanın müstəqilliyini tanıtmaq cəhdlərinə kölgə salaraq, sovet tarixşünaslığında özünə geniş yer tapmış "müsavatçıların Azərbaycanı ingilis müstəmləkəsi boyunduruğuna salmaq cəhdləri" haqqındakı mülahizələri sübut etməyə çalışır. Müəllif Ənzəli danışıqlarının nəticəsini belə təsvir edir: "Azərbaycan-tanınmır. Bakı işğal edilir. Tomson-general-qubernatordur. Azərbaycan qoşunları-Bakıdan rədd olur" [9, 33]. Lakin Ənzəli danışıqları Azərbaycan üçün əhəmiyyətsiz deyildi. Bu haqda C.Həsənov haqlı olaraq yazır: "Bütün çətinliklərə baxmayaraq Azərbaycan nümayəndələrinin Ənzəlidəki danışıqları əhəmiyyətsiz deyildi. Azərbaycandakı və ümumən Transqafqazdakı vəziyyətin bəzi mühüm cəhətləri haqqında general Tomsonla faydalı fikir mübadiləsi edildi, ən başlıcası isə Azərbaycanın Paris sülh konfransında iştirak edəcəyi və Bakıya erməni hərbi hissələrinin daxil olmayacağı barədə V.Tomson öz üzərinə təhəddüdlər götürdü" [2, 147].

İngilislərin Bakı ilə bağlı planlarına geniş şəkildə toxunan Rayevski yazır: "Azərbaycanın işğalının lap əvvəlindən onu Rusiyaya vermək ingilis-hind məktəbinin generalı olan Tomsonun məqsədlərinə daxil deyildi" [9, 36]. Tomsonun Bakıda verdiyi bəyanatlara, xüsusən onun Bakını Rusiya ərazisi kimi tanıması barədə verdiyi bəyanata toxunan müəllif, bunu bir tərəfdən Antantanın üzvü olan Fransanın "Vahid və bölünməz Rusiya" planın tərəfdarı olması, digər tərəfdən isə Tomsonun Azərbaycan hökumətinə təzyiq göstərmək istəməsi ilə izah edir [9, 37-38].

Rayevski ingilis komandanlığının neft siyasətinə toxunarkən Azərbaycan neftinin ingilislər tərəfindən talan olunması, neft məhsullarının kütləvi surətdə daşınıb aparılması fikirləri ilə razılaşmır. O, statistikaya əsaslanaraq göstərir ki, ingilislər tərəfindən 5 ay ərzində Batuma 3134 ton neft, yaxud illik daşınmanın 15%-i göndərilmişdi [9, 71]. Rayevski bununla ingilis komandanlığının Bakı neft mədənlərindən istədikləri qədər neft götürmək imkanları olduğu halda, onların buna çalışmadıqlarını sübut etməyə çalışır. Müəllif ingilislərin hərəkətini bununla izah edir: "İngilis komandanlığı bir neçə milyon pud neftin zəbt olunmasına tələsmirdi, belə ki, bu Azərbaycanın Britaniya imperiyasının tərkibinə tamamilə daxil edil-məsi perespektivindən irəli gəlirdi" [9, 71]. Müəllifin götürdüyü statistik məlumatları digər məlumatlarla müqayisə etməməsi onun bu qənaətə gəlməsinə səbəb olmuşdur. Statistik məlumatlar göstərir ki, 9 ay ərzində –1918-ci ilin dekabrında 1919-cu ilin avqustunadək ingilislər Bakıdan 113,5 milyon manatlıq, başqa sözlə, 30 milyon puda qədər neft aparmışdılar [1, 230].

A.Rayevskinin Azərbaycan Xalq Cümhuriyyətinin diplomatiyasının öyrənilməsinə verdiyi ən mühüm töhfə onun Paris sülh konfransında iştirak edən Azərbaycan nümayəndə heyətinin məlumatlarını 21 səhifədən ibarət giriş sözü ilə birlikdə nəşr etdirməsindən ibarətdir. Rayevski yazdığı giriş sözündə hadisələri təhlil etməyə çalışsa da, Dünya müharibəsinin son mərhələsində və müharibədən sonrakı tənzimləmə dövründə Azərbaycanda baş verən hadisələrə və gedən proseslərə

beynəlxalq münasibətlər kontekstində yanaşmır, bu da öz növbəsində müəyyən məsələlərə münasibətdə müəllifin qərəzli və yanlış nəticələr çıxarmasına səbəb olur.

20-30-cu illərdə sovet tarixşünaslığında Bakı kommunasının, "26 Bakı Komissarlarının" tarixinə xeyli əsər sərf edilmişdir. Bakı kommunasının tarixi Azərbaycan Xalq Cümhuriyyətinin tarixi ilə sıx surətdə bağlı olduğundan həmin əsərlərdə Cümhuriyyət tarixinin bəzi səhifələri işıqlandırılıb. Q.Şteynin Bakı Kommunasının tarixinə həsr etdiyi eyni adlı əsəri [11] populyar oçerk janrında olmaqla bərabər tədqiq edilən mövzu baxımından müəyyən əhəmiyyət daşıyır.

Şteyn özündən əvvəlki müəlliflərdən daha da irəli gedərək Azərbaycan hökumətini belə səciyyələndirir: "İyunun 15-i bəy-xan əksinqilabi təşkilatı formalaşdırıldı: Yelizavetpolda Azərbaycan hökuməti yaradıldı" [11, 67]. Müəllif məsələyə sırf ideoloji cəhətdən yanaşır, xalqın iradəsini əks etdirən Milli Şuranın təşkil etdiyi hökuməti, "əksinqilabi təşkilat" adlandırır. Hökumətin Bakını azad etmək üçün atdığı addımları Bakıya qarşı türk-müsəlman yürüşü kimi səciyyələndirən Şteyn qarşıya Bakı Kommunasının "yaxşı silahlanmış türk ordularına" hansı qüvvələrlə müqavimət göstərəcəyi sualını qoyur. Müəllif Qırmızı Ordunun döyüş qabiliyyəti haqqında yazır: "Qırmızı Ordu kifayət qədər böyük süngüyə malik idi, lakin unutmaq lazım deyil ki, onun əhəmiyyətli hissəsini keçmiş daşnak ordu hissələri təşkil edirdi" [11, 67-68]. Müəllifin bu etirafı əslində Bakı Kommunasının bir erməni-daşnak təşkilatı olması mülahizəsini irəli sürməyə əsas verir. Doğrudan da əhali arasında nüfuzu olmayan Kommuna müsəlmanlara qarşı qanlı siyasətini həyata keçirmək üçün əlverişli şərait gözləyən daşnaklardan başqa heç kimə istinad edə bilməzdi. Kommunanın əhali arasında nüfuzu olmadığını Şteynin daha bir məlumatı da təsdiq edir. Müəllif yazır: "İyunda səfərbərlik elan edildi, lakin onun nəticələri olduqca əhəmiyyətsiz idi: o orduya kifayət qədər komplektləşmə vermədi" [11, 68]. Lakin müəllif səfərbərliyin nə üçün nəticəsiz qaldığını izah etmir.

Şteyn Kommunanın süqutunu əsasən daşnakların və digər partiyaların xəyanəti ilə əlaqələndirməyə çalışaraq yazır: "Bakının süqutunun səbəbi hərbi uğursuzluqlarla nə qədər bağlı idisə, arxadakı satqınlıqla, başlıca olaraq sazişçi və millətçi partiyaların biabırçı xəyanətləri ilə də bir o qədər bağlı idi" [11, 70]. Müəllif bununla yanaşı daşnakların müsəlman əhaliyə qarşı tutduqları düşmənçilik münasibətini bolşevik mövqeyindən olsa da etiraf edir: "Yürüş zamanı daşnaklar ətraf kəndlərdə qarətlə məşğul olaraq, kəndliləri hiddətləndirir və onları Sovet hökumətinə qarşı qoyurdular" [11, 71]. Bolşeviklərin iddia etdikləri kimi proletariatın böyük bir hissəsinin onları dəstəkləməsini nə üçün Azərbaycan-türk qoşunlarının hücumu zamanı nümayiş etdirilmədiyini isə Şteyn belə izah edir: "Bakı fəhlələri davamlı aclıqdan üzülmüşdülər, onlar fasiləsiz mübarizədən yorulmuşdular və eyni zamanda onları cəbhədəki ağır vəziyyət həyacanlandırır və hərbi uğursuzluqlar qorxudurdu" [11, 71]. Müəllifin bu fikirləri artıq fəhlə sinfinin də bolşeviklərin hakimiyyətindən cana doyduğunu və bolşeviklərin demək olar ki, proletariat arasında olan az-çox dayaqlarının itirilməsi qənaətinə gəlmək imkanı verir.

AXC-nin mühüm problemlərindən birini təşkil edən ordu quruculuğu məsələsi 20-30-cu illər Sovet tarixşünaslığında A.Steklov tərəfindən işlənilmişdir [10]. Sovet tarixşünaslığına məxsus olan və ciddi nöqsanlardan xali olmayan A.Steklovun Azərbaycan ordusuna həsr etdiyi bu əsəri Azərbaycan Xalq Cümhuriyyətində aparılan ordu quruculuğunu öyrənmək baxımından mühüm əhəmiyyət daşıyır.

AXC-nın torpaq və kəndli siyasətinə həsr edilmiş ilk əsərin müəllifi N.Pçelin hesab oluna bilər. "Müsavat dövründə kəndli məsələsi" adlanan bu əsərdə [7] müəllif Zaqafqaziya Seyminin fəaliyyəti dövründən tutmuş Bakı Soveti də daxil olmaqla AXC-nin hakimiyyəti dövründə hökumətlərin torpaq və kəndli siyasətini şərh etməyə cəhd göstərmişdir.

Əsərinin birinci fəslində əsasən köhnə statistikaya əsaslanan Pçelin XX əsrin əvvəllərində Azərbaycan kəndindəki sosial qruplar, torpağın onlar arasında bölünməsinə, icarədarlıq və s. məsələləri aydınlaşdırmağa cəhd göstərir və bütün bu problemlər fonunda Sovet tarixçilərinin metoduna uyğun olaraq Müsavat partiyasının sosial proqramını kəskin tənqid edir. Müsavat partiyasının bəy və xanların hüquqlarını müdafiə etməsi kimi mülahizələri sübut etməyə çalışan müəllif, müsavatçıların Zaqafqaziya Seymində aqrar qanunun layihəsinin müzakirə edilməsi zamanı, müzakirəni dayandırmaq tələbi irəli sürərək, guya bununla hakim sinfin tərəfini tutmaqda təqsirləndirir [7, 10]. Pçelin göstərir ki, "bolşeviklərlə və onları Zaqafqaziyada təmsil edən Bakı Kommunası ilə mübarizə aparan Müsavat hökuməti demokratik, hətta inqilabi vədlərinə əməl etmədi, öz yaranmasının birinci günündə mürtəce burjua-mülkədar siyasəti həyata keçirməyə başladı" [7, 11]. Müəllif bu fikrini hökumətin Zaqafqaziya Seymi tərəfindən qəbul olunan aqrar qanununun həyata keçirilməsinin təxirə salması ilə əsaslandırır. Məlumdur ki, ölkədə hərcmərcliyin hökm sürdüyü bir şəraitdə əhalinin müxtəlif sosial qrupları arasında qarşıdurmaya səbəb ola biləcək bu qanun layihəsinin qeyri-mükəmməlliyini anlayan hökumət bu addımı atmışdı.

Azərbaycan hökuməti Bakıya köçdükdən sonra da aqrar məsələnin həll edilməsinə biganə münasibət bəslədiyini iddia edən Pçelin yazır: "Müsavatçılar aqrar məsələnin həll edilməsinə tələsmirdilər" [7, 22]. Dövrün sənədləri sübut edir ki, hökumət gələcək ictimai tərəqqinin aqrar məsələnin birbaşa və uğurlu həllindən asılı olmasını dərk edirdi. Bu məsələ 3-cü hökumət kabinetinin bəyanatında xüsusi yer tuturdu. Bəyanatda deyilirdi: "Kəndli və fəhlə ünsürlərinin təminatı qayğısı hökumətin başlıca vəzifəsi olmalıdır. Torpaq kəndliyə havayı verilməlidir" [13]. Bununla yanaşı Pçelin yenə də hökumətin bu məsələyə biganə qalmasını iddia edir: "Müsavatçılar burjua-mülkədar hökuməti dəftərxana yazışmaları ilə aqrar qanunu hazırlığı haqqında danışıqla məşğul idi" [7, 23]. Qeyd etmək lazımdır ki, torpaq haqqında qanunun müzakirəsinin aylarla uzadılması hökumətin süründürməçiliyi deyildi, bu hər şeydən əvvəl qanunu işləyib hazırlayan parlament komissiyasının tərkibinin siyasi cəhətdən rəngarəng olması, partiyaların arasında gedən siyasi mübarizə ilə bağlı fikir ayrılıqlarının və ixtilafların olması və s. ilə bağlı idi. Torpaq məsələsinin radikal həlli bir çox sosial qrupların, xüsusilə iqtisadi cəhətdən qüvvətli olan qrupların narazılığına səbəb olardı. Bütün bunları nəzərə alan M.Ə.Rəsulzadə məsələ ilə bağlı deyirdi: "…bu məsələdə tələskənlik, eləcə də həddən ziyadə uzatmaq eyni dərəcədə mənfi nəticələrə gətirib çıxara bilər" [14].

Marksist-tarixçi Y.Burçalovun 26 Bakı komissarlarının tarixinə həsr etdiyi əsərində [5] Bakı Sovetinin fəaliyyəti ilə yanaşı, gənc Azərbaycan Xalq Cümhuriyyətinin tarixinin ilkin səhifələri də işıqlandırılmışdır. Tarixi əsərdən daha çox Stalinə mədhiyyəni xatırladan bu əsər əsasən tarixi reallıqdan uzaq bəzi mülahizələrlə–Stalinin birbaşa Zaqafqaziyada bolşevik təşkilatlarına rəhbərlik etməsindən tutmuş "Bakıya alman-türk təcavüzü" kimi mülahizələrlə zəngindir. Burçalov Osmanlı hökumət tərəfindən Azərbaycana ağır günlərində göstərilən yardımı puça

çıxarmaq üçün türklərin Zaqafqaziya siyasətini belə xarakterizə edir: "Türk imperialistləri müsavatçıların köməyilə hərəkət edirdilər. Onlar öz mülklərini Əfqanıstanın özünə kimi çatdırmaq üçün Zaqafqaziyanı, Şimali Qafqazı, hətta Türküstanı da özlərinə tabe etmək istəyirdilər. Türklər Almaniyanın Avropada oynadığı rolu Asiyada oynamaq istəyirdilər" [5, 32]. Bununla müəllif türklərin Bakıya gəlişi probleminə "panturanizm" kontekstində yanaşmağa cəhd göstərir. Lakin məlumdur ki, Qafqaza az hərbi qüvvə ilə daxil olan türk komandanlığı Azərbaycanı ona yad olan ünsürlərdən təmizləməkdən başqa bir tədbir görməmişdi.

Beləliklə, Azərbaycan Xalq Cümhuriyyətinin tarixi 20-30-cu illər tarixşünaslığında hakim sovet rejiminin "sosial sifarişinə" uyğun təhrif olunaraq, Cümhuriyyətin bütün fəaliyyəti "antixalq" siyasəti kimi qələmə verilmişdir. Bununla yanaşı, bu dövrün tarixşünaslığına dair yazılmış əsərlərdə mövcud faktların hələ tamamilə təhrif olunmaması hiss olunur, bir sıra qiymətli mənbələrin dövriyyəyə cəlb olunması sonrakı dövrlərdə onlardan obyektiv istifadə olunması üçün şərait yaradır.

## ƏDƏBİYYAT


1. "Azərbaycan arxivi", 1989, №1-2.
2. Əzizbəyova P.Ə. Azərbaycanda sovet hakimiyyətinin qələbəsində böyük rus xalqının qardaşlıq köməyi. Bakı: 1954, 351 s.
3. İsgəndərov A. Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı.1918-1920. Bakı: Adiloğlu, 2006, 396 s.
4. Ratqauzer Y. Şura Azərbaycanı uğrunda mübarizə. Bakı: 1929, 109 s.
5. Бурджалов Э. 26 Бакинских комиссаров. Москва, 1938. Очерки истории коммунистической партии Азербайджана. Баку: 1985, т. I, 109 s.
6. Нариманов Н. Избранные произведения. т.II. Баку: 1989, 403 s.
7. Пчелин Н. Крестьянский вопрос при Мусавате (1918-1920 гг.). Баку: 1931, 214 s.
8. Ратгаузер. Я. Революция и гражданская война в Баку. I часть 1917-1918 гг. Б.: 1927, 198 с.
9. Раевский А. Английская интервенция и мусаватское правительство (к истории интервенции и контрреволюции в Закавказье). Баку: 1927, 216 s.
10. Стеклов А. "Армия Мусаватского Азербайджана". Баку: 1928, 149 s.
11. Штейн Г. Бакинская Коммуна. Баку: 1928, 114 s.
12. Шаумян С. Бакинская коммуна. Баку: 1927.
13. "Азербайджан" qəzeti, 29 декабря 1918 г.
14. "Азербайджан" qəzeti, 7 декабря 1919 г.


## АЗЕРБАЙДЖАНСКАЯ ДЕМОКРАТИЧЕСКАЯ РЕСПУБЛИКА В СОВЕТСКОЙ ИСТОРИОГРАФИИ В 20-30-х ГОДАХ


### Я.Р.ГАСАНОВА


### РЕЗЮМЕ


В статье исследуется период истории Азербайджанской Демократической Республики в произведениях советских историков 1920-30-х годов. Автор старался показать особое значение этих произведений в том что, они были изданы в первые годы установления советской власти в Азербайджане и поэтому факты не могли скрыватся. На ряду с этим история Азербайджанской Демократической Республики в историографии 20-30-х годов соответственно господствующему советскому режиму и

«социальному заказу» искажалось, а вся деятельность Республики представлялась как «анти народная» политика. Все это было анализировано в статье, а также было показано критическое отношение к произведениям которые рассмаривались в статье.

## AZERBAIJAN PEOPLE REPUBLIC IN THE 20-30-th OF SOVIET HISTORIOGRAPHY

**Y.R.HASANOVA**

**SUMMARY**

Works of Soviet historians written in 1920-1930 which related with Azerbaijan People Republic are investigated in the article. The author tries to show that these works which meeting to the first years of the establishment of the Soviet Power in Azerbaijan, assume special importance from point of view can conceal full of the objective truths related with Republic history. Thereto, history of Azerbaijan People Republic were distorted in the 20-30-th of Soviet historiography according to "social order" of Soviet regime, all activities of Republic were written as politics of "anti-people".

All of these have been analised and objective truths have been revealed in the article.